# Düşmənin Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəf alaraq atdığı "Smerç" raketinin bombacıqlarından 242-si ərazidən daşınıb

**Ermənistan silahlı qüvvələrinin regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi sahəsində mühüm yer tutan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Yevlax rayon ərazisindən keçən hissəsinə endirdiyi raket zərbəsi "Smerç" reaktiv yaylım atəşi sistemindən həyata keçirilib.**

ANAMA-nın əməkdaşı Qədir Namazalıyev AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, "Smerç" tipli raketin tərkibində olan 300 bombacıq ətrafa səpələnib. Həmin bombacıqlardan 2-si düşərkən partlayıb. Bombacıqlardan 242-si ANAMA tərəfindən daşınıb. Ərazidə qalan 56 ədəd bombacığın daşınması təhlükəli olduğundan yerindəcə zərərsizləşdiriləcək.

***AZƏRTAC***

Azərbaycan.- 2020.-8 oktyabr.- S.10.